“Xalq qəzeti”nin layihəsi

# Radioların dili monitorinq aynasında

## Qrammatik norma pozuntuları

Qrammatik norma nitqdə sözlər və cümlələr arasındakı əlaqələrin düzgün qurulmasını nizamlayır. Təhlillər göstərir ki, qrammatik norma pozuntuları daha çox morfoloji aspektdə – ismin hal şəkilçilərində, başqa sözlə, idarə əlaqəsində, müəyyən miqdar sayından sonra cəm şəkilçilərinin gəlməsində, söz sırasında, dilimiz üçün səciyyəvi olmayan cümlə quruluşlarında və s. özünü göstərir. Onlardan bəzilərinə nəzər salaq:

## Hal şəkilçilərində:

• “Birinci şou” – “Hansı prinsipi (prinsipə) əsas riayət edirsiniz?”
• “İkibaşlı söhbət” – “Bax nələrə (nələri) vurğulamaq lazımdır?”
• “İkibaşlı söhbət” – “Bu araşdırma (araşdırmada) 400 nəfərin (nəfər) iştirak edib”.
• “Xəbərlər” – “Son sutkada koronavirus infeksiyasını (infeksiyasına) 922 yeni yoluxma faktı qeydə alınıb”.
• “Master-klas” – “Suallarınızı (suallarınıza) bu gün cavab verəcək Vüqar usta”.
• “İkibaşlı” – “Bu səbəbdən ayrı-ayrı siniflərdə və məktəblərdə distant təhsil (təhsilə) keçid olacaq”.
• “Danışır Zaur” – “Biz sizi (sizin) müştəriniz olmuşuq”.
• “Avtostop” – “Bəzi insanlar var ki, onlar (onlara) söz təsir etmir”.
• “Eşq olsun” – “Görək Kənan bu gün hansı mahnının (mahnını) bu gün səsləndirəcək”.
• “Təptəzə” səhər şousu – “Biz bədənin müxtəlif nahiyələrini (nahiyələrinə) vurulan tatudan danışırıq”.
• “Mənəvi dəyərlər” – “Bəs ümumilikdə bu layihə (layihəyə) neçə gənc qoşulmuşdu?”
• “Dadlı şou” – “6-cı yerdə (yeri) isə dəniz kələmi tutur”.

## Şəxsə və kəmiyyətə görə uzlaşmada:

• “İkibaşlı söhbət” – “Bu dəqiqə cərrahi əməliyyatlarını robotlar həkimlərdən qat-qat yaxşı eləyirlər (eləyir)”.
• “İş adamı” – “Alimlər təhsil ocaqlarının çox erkən başlandığını təsdiq edib (ediblər)”.
• “İş adamı” – “Bir çox qadınlar iddia edir (iddia edirlər) ki, suya duz atılan zaman su tez qaynamağa başlayacaq”.
• “Xəbərlər” – “Bu cür neqativ halın aradan qaldırılması istiqamətində polis əməkdaşları da araşdırmaya başlayıb (başlayıblar)”.
• “Xəbərlər” – “Onlar tibbi prosedurları (prosedurlar) gözlənilməklə yaşadığı (yaşadıqları) evlərə qaytarılıb”.
• “Xəbərlər” – “Rusiyalı iş adamları Azərbaycanda səfərdədir (səfərdədirlər)”.
• “Dadlı şou” – “Şorbalar, məncə, yayda “dəbdən düşürlər (düşür)”.



• “Səhər adamları” – “Deməli, Amerika və İzrayil əməkdaşlıq etmək barədə artıq razılığa gəliblər (gəlib)”.
• “Xəbərlər” – “Hər iki hərbçi müalicələrini ev şəraitində davam etdirirlər (etdirir)”.

## Cəm şəkilçisinin düzgün işlədilməməsi:

• “Səhər adamları” – “Ən yaxşı kişi aktyor” nominasiyası üzrə 10 məşhur simalar (sima) var”.
• “Səhər adamları” – “Deməli, dinləyicilərimizdən bir neçə mesajlar (mesaj) var”.
• “Radio doktor” – “Xeyirli ömürlər (ömür) arzu eləmək istəyirəm”.
• “Günün birinci yarısı” – “Bəlkə sizdə belə bir statistikalar (statistika) var, bu il ərzində nə qədər kağız istehsal olundu?”
• “Biznes-klas” – “Hal-hazırda sizə maraqlı bir robotlar (robot) haqqında məlumat vermək istəyirəm”.
• “Eşq olsun” – “Təşəkkürlər (təşəkkür) edirəm sizə”.

## Dilimiz üçün səciyyəvi olmayan cümlə quruluşu:

• “Günorta efiri” – “Bir neçə dənə mahnımız var ki, hansı ki dinləyicilər hər verilişdə istəyirlər”.



• “Təptəzə” səhər şousu – “Olmayanı demək böhtandır, bu bir başqadır, hansı ki fitnə yaradır”.
• “Fərqli səhər” – “Amerikada Zona 51 çox məşhur bir məkandır, harada ki amerikalılar düşünürlər ki, orada yadplanetliləri saxlayırlar”.
• “İş adamı” – “Mən sevmirəm elə yerləri, harada ki orada tapbataraplır”.
• “Fərqli səhər” – “Onu da deyim ki, elə qida məhsulları var ki, bax onlar haqqında bir məlumat verim, hansılar ki soyuducuda saxlamaq məsləhət deyil”.
• “Əmlakçı” – “Xüsusən bunun perefabrik evlər var, hansını ki bizim müxtəlif şirkətlər tikintisini bizdə həyata keçirirlər”.

## Üslub və ifadə səhvləri:

Monitorinqin nəticələrinə əsasən, deyə bilərik ki, ədəbi dil normalarının pozulması fonunda xeyli üslub və ifadə səhvlərinə də yol verilmişdir. Düzgün nitqə yiyələnmək üçün qrammatik qaydaları bilməklə yanaşı, fikri aydın ifadə etmək, ana dilimizin zəngin lüğət tərkibindən müvafiq söz və ifadələri seçməyi bacarmaq, nitqin təsir gücünü artıran vasitələrdən yerində istifadə etmək lazımdır. Təhlillər göstərir ki, bəzi aparıcılar, xüsusilə şou-veriliş aparıcıları diqqət çəkmək, reytinq qazanmaq üçün öz nitqində loru və tüfeyli sözlərdən, qeyri-etik ifadələrdən çoxmilyonlu dinləyici auditoriyasını nəzərə almadan nümayişkarcasına istifadə edirlər. Eləcə də radiolardan eşidilən mənası anlaşılmayan cümlələr dilimizin saflığına xələl gətirir:

• “Təptəzə” səhər şousu – “Doğrudan da, səhər tezdən bu nə söhbətdir, alə?”
• “Master-klas” – “Birdən əyləcləyir, dayanır, birdən maşın kəllə atır”.
• “İş adamı” – “Başladı malalamağa və kifayət qədər uğurla etdi bunu”.
• “Eşq olsun” – “Getdim ki, tüpürsün üzümə”.
• “İkibaşlı” – “Mən Azərbaycan əhalisinin doxsan doqquz faizini məhz o oxlovla döyüm?”
• “İkibaşlı söhbət” – “İsgəndər, qarpızlandırım səni, əzizim?”
• “İkibaşlı” – “Əllə manevr eləyirsən ki, çək sağa da, görürsən, heç nə, lom kimi baxır üzünə”.
• “Düzgün hərəkət” – “Və avtobus sürücüsü bir də baxırsan ki, tüstüləyə-tüstüləyə gedir”.
• “Eşq olsun” – “Biz də öz adımızdan və yaxınlarına səbir diləyirik və başsağlığı veririk bu qəzadan əziyyət çəkənlərin”.
• “Eşq olsun” – “Bizim də o vaxt çatda boş vaxtımız olanda oğlanları belə yazırdıq qızlarla”.
• “O başdan” – “Orada görürəm ki, iki nəfər şotlandiyalı yekə, ikimetrlik, belə nəhəng cavan oğlan sifariş edə bilmirlər”.

Qeyd etmək lazımdır ki, çağdaş dünyamızda radiolar da televiziyalar kimi mühüm informasiya vasitəsi olub, dilimizin təbliği baxımından güclü təsir imkanlarına malikdir. Çünki gənc nəslin düzgün nitq vərdişlərinin və dil təfəkkürünün formalaşdırılmasında radio müstəsna rol oynayır.

Azərbaycanın gələcəyi gənclərimizin əlində olduğu kimi, dövlət dilini qorumaq, inkişaf etdirmək, yaşatmaq kimi şərəfli missiya da məhz yetişən yeni nəslin üzərinə düşür.

*Vəfa İSMAYILOVA,*
*Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin şöbə müdiri*